# Vanlı Göyçek

(Azerbaycan Destanları, Baku, 1977, Derleyen: **Azad Nebiyev)**

(Ustadname)

Çjafil könül, bir meclise varanda
Ver sadağa acı dille danışma,
Hercayı söyleme, hercayı deme
Laf eyleyip güle güle danışma.

Âşıq gerek her mecliste sayılsın,
Sözünü eşiden qansm, ayılsm,
Kelme çıxar, şirin cana yayılsın,
Aşırıp sözünü zile danışma.

Sözün ezel tutma azgın, axmağm,
Hoşlanılmaz aralıqtan çıxmağın,
Layiq deyil başa qaxınçi çaxmağm,
Öz eybini bile bile danışma.

Yazıq Hüseyn, ehdin yeter yerine,
Gönül bağla aşıkların birine,
Çek sözünü heqiqete, derine,
Her qedir bilmeze bele danışma.

Âşıxlar ustadnameni bir yox, iki deyipler, biz de deyek iki olsun:

Adamoğlu, yol, erkânı tanı, bil,
Yol, erkân bilenin yeri dar olmaz.
Sırrını söyleme kamu aleme,
Bivefa dilberden sana yar olmaz.

İğit odur te'ne oxun atmaya,
Helal mayasma haram qatmaya,
Bir oğul ki, reqibine çatmaya,
O oğulda namus, qayret, ar olmaz.

Öz süründen qurban desen deyersen,
Öz ununda şal toxuyup geyersen,
Beslediyin bağın barm2 yeyersen,
Yad bağından sene hayva, nar olmaz.

Dellek Murad, çekme bir bunca gamı,
Burda duran olmaz, gederler hamı,
Felek biçinçidi, bu dünya zem,
Biçilen zeminden mürğza olmaz.

Aşıxlar ustadnameni iki yox, üç deyipler, biz de deyek üç olsun, düşmen ömrü puç olsun:

Özünden özgeye bir iş buyurma,
Sözün yere düşer, qıymeti olmaz.
Her iş dutar olsan, öz elinle dut,
Cefası çox olar, minneti olmaz.

Obadan obaya dolanma, könül,
Doğru söz deyende bulanma, könül!
Avara avara dolanma, könül,
Doğru yol tutanın beledi6 olmaz.

Her möhre getirip, la'ldır deyer,
Doğru söz deyersen, te'bine deyer,
Bir iğit öz qedrin bilmese eğer
Düşer el gözünden, hürmeti olmaz.

Halâl ile haram bil ki, alışmaz,
Gaynayıban birbirine qarışmaz,
Cesede nuş? olup, cana yapışmaz
Rizasız tikenin lezzeti olmaz.

Boynunu vurma sen yolda yönsüzün
Bir bağrı yanığın dinle sen sözün,
Açgözün, namerdin, hesis», sonsuzun,
İsmayil, dünyada qeyreti olmaz.

Ustad dedi, beş kelime şirin sohbet haradan ve neden danışaq, Unas seherinden.

Unas seherinin padişahı ölmüştü, yerine ise onun ay parçası kimi gözel-göyçek qızı Perizad Xanım'ı, padişah seçmiştiler. Padişahın yerine göz diken vezir vekil qalmıştı iç-bağırsağmı gemire gemire. Başlamıştılar orda burda xısmlaşmağa9 ki, kızdan ne padişah olacax, lap oldu da... ölkeni nece idare edecek...

Ölen padişahın qoca bir veziri vardı. Bütün bu söhbettten vezir xeberdar oldu, odur ki, mehluqu bir gün meydana cem edip dedi:

- Ey camaat, bizim ölkenin lap ezelden başçısı zenanio olub, Unas seheri de öyle qadm seheri de mektir. Unas ölkesinde qayda beledir ki, padşahm oğlu yoxdursa, atası ölende qızı onun yerine padşah olmalıdır. Perizad Xanım'a men zamin" dayanıram, ölkeni idare etmekte ona kömek edeceyem.

Beli, vezirin ciddi-cehdinden sonra qız taxta çıxtı. Hökmü atasmdan da artıq oldu. Aradan bir nece yıl keçdi. Giz padişah olmağına çox pişmen oldu. O, aile qurmaq, ana olmaq kimi şirin hayallere daldı. Çünkü fani dünyanın beş gününde bu ağır vezifenin altına girmektense, ere getmek, aile qormaq min defe yaxşı idi. Perizad Xanım bu fikirle taxtı tacdan uzaq düşmeye başladı. Hökmü, divanı başlı başına bıraxdı. Halk geldi vezirin yanma ki, divan boşalıp, ölkede herc-merclik xeddin aşır, düşmen bize gülür...

Goca vezir dünya görmüş adamdı, ehvalatı başa düşdü. Tez-telesik birbaş Şahzade qızm huzuruna getti, taxtın yanında diz çöküp ölkedeki veziyetten onu haliiz etti. Vezir divanın boşaldığını, ölkede herc-mercliyin arttığını söyledi. Şahzade qız fikre getti, sonra üzünü vezire tutub soruştu:

- Vezir, bunun sebebini sen nede görürsen?

Vezir dedi:

- Şahzade Xanım sağ olsun, bunun bir sebebi var. Ama demeye heya edirem.

I. bela,utandıran hal 2. meyva 3. tarla 4. pay 5. mahv 6. rehber 7. yaramak 8. cimri, eli sıkı 9. gizli konuşmak 10. kadm II. kefil 12. haberdar

-Gorxma, fikrini söyle. Sen atamın sadiq ve ziri olmusan, menim de en sadiq meslehetçimsen.

-Şahzade Xanım sağ olsun, senin ere getmek maqamındır. Sen gerek ere gedesen. Her şey qaydeye düşer.

Padişah qız bir de fikre getti. Sonra vezire dedi:

- Düz buyurursan, vezir... İndi de görüm men ne etmeliyem?

Vezir cavabında dedi:

- Ülkeye cari çektir ki, kim menim sözümün qabağmı getirebilse, men ona ere gedeceyem.

Unas seherine car çekildi. Her yerden âşıklar, çalıp-oxuyanlar axışıb geldi, çox dedi, çox danıştı, ama heç kes Perizad Xanım'ın sözünün qabağmı deyebilmedi. Perizad Xanım da sözünün qabağmı deyebilmeyenlerin hamisini zindana saldı. Bu xeber ölkeye yayıldı. Bir xeyli geçenden sonra daha heç kes Perizad Xanım'ın sarayına ayaq basmadı. Bu xeber Unas'tan çox çox uzaxlara yayıldı. Bir gün de Van seherine gedip çattı.

Bir defa âşıklar meclisi idi. Ustad aşığın da Göyçek adlı bığ2 yeri yenice terlemiş bir şagirdi vardı. Eyle ki, şagird meseleni eşitdi, sazını üs tadına uzattı: .

- Ey ustad, zehmetini mene halal eyle, men geder oldum.

Ustad lap teeccüp qaldı. Evvel ele bildi ki, Göyçek'in başına hava gelip. Amma gördü yox, bu başka mereze oxşayır. Odur ki, yoldan saxlamağı reva bilmedi, sazı da ona bağışladı, zehmetini de ona halal etti. Üstelik Göyçek'ye bir yol xerçliyi de verdi.

Beli, Vanlı Göyçek oradan birbaş Unas seherine geldi. Soraxlaşıp padişahın sarayını tapdı, gelip qapını döydü.

Perizad Xanım'ın Vezir oğlu Mehemmed adlı bir qullukçusu var idi. Gelip gedeni o qarşılardı. İndi qapı döğülende Vezir oğlu Mehemmed qapım açtı. Metlebini dinleyip aşığı içeri bıraxtı. Sonra Perizad Padişah'a xeber apardı ki, bes bir âşık gelip, deyir padişahın sözünün evvelini men deyerem.

Perizad Xanım da meclis düzeltti. Sûfreye her taamdan düzdü. Can dermanı deseydin sûfrede vardı. Birce sûfreye mina qelyan3 qoymadı. Beli, ele ki, sûfre hazır oldu, Perizad Xanım Vezir oğlu Mehemmed'e dedi ki, âşığı getir. Gullukçu âşığı getirdi. Ustad deyir ki, mecliste oturanların hamisi unas* idi. İki nefer kişi vardı. Biri qullukçu Vezir oğlu mehemmed, o biri isi âşık Vanlı Göyçek.

Beli, meclis qızıştı, yediler içtiler, Vanlı Göyçek yorgunluğunu aldı, gözüne ışık geldi. Meclisin axırında Perizad Xanım, Vezir oğlu Mehemmed'e dedi:

-Vezir oğlu Mehemmed, âşıxtan xeber al görek menim bu meclisimin neyi eysiktir?

Vezir oğlu Mehemmed xeber alanda, âşık dedi:

- Meclise söz yox idi, Perizad Xanım var olsun ki, qerip âşığa bele meclis qurdu. Amma heyıf sûfrede mine qelyan yox idi.

Perizad Xanım emretti, mina qelyanı sûfreye getirdiler. Âşık qalyanı aldı, doldurdu, od qoydu üstüne, evvel özü bir iki qullap[5] vurdu, sonra da uzattı Vezir oğlu Mehemmed'e . Mehemmed qalyanı almağa ehtiyat etti. Perizad Xanım'm üzüne baxtı, gördü Perizad Xanım da başı ile işare edir ki, götür, Yoxsa axı nökerin padişah yanında qelyan çekmesi harada görünmüştü. Beli, Vezir oğlu Mehemmed de qelyanı aldı, iki qullap vurdu, sonra uzattı Perizad Xanım'a. Belelikle, meclisteki 40 kenizenö heresi qelyanı alıp bir qullap vurdu.

Perizad Xanım xeber aldı ki, bu minalı qelyan ancaq qullap vurmak üçündür, yoxsa onun özge teheri 7 de var?

Burada Vanlı Göyçek sazı basıp döşüne aldı görek ne dedi:

Ey erenler, müselmanlar,
Zinet vermişdir qelyana.
İşveli, nazlı gözleri
Alıp'dır gonca dehana.

Serinden ensimezs duman,
Anı çeker yaxşı yaman,
Hizmetinde huri qılman,
Pilleler paki pendene.

Vanlı Göyçek sine qoştu,
Ahü zarım xedden aştı,
Aralığa bir söz düştü,
Dehandanio yaxşı yamana.

Perizad Xanım baxdı gördü ki, ustad arif âşıxtı, özü de deyesen haq âşığıdır. Odur ki, bir de onu imtahana çekmek istedi. Bu defa da padişah sazı döşüne basıp aldı görek ne soruştu:

Âşıq ne yerden gelirsen
Söyle görüm nedir adın?
Kim verdi sene taleyi,
Kim oldu senin üstadın?

Vanlı Göyçek gördü metlebe yaxınlaşır, sazı döşüne basıp aldı görek ne dedi:

Perim, Mekke'den gelirem,
Göyçek'tir menim adım. Şah
elinden bade içtim, Eşk oldu
menim üstadım.

P e r i z a d  X a n ı m :

O ne şeydir saralıp soldu,
Neler deryalara daldı
Söyle cismin neden odu,
Kim oldu senin bünyadın?"

1. duyuru 2. bıyık 3. nargile 4. kadın 5. nargileden bir nefes çekmek 6. kadın 7. biçim 8. çökmez 9. merdiven 10. ağız 11. sahip

V a n l ı G ö y ç e k:

Mey valar saralıp soldu,
Gavvas'tırı deryalar daldı,
Cismim torpatan yoğruldu,
Adem'dir menim bünyadım.

P e r i z a d Xanım:

Men Periyem, Perizade,
Elimden gedersen zade,
Öldürrem seni burda,
Ağlayar qohumla yadın.

V a n l ı G ö y ç e k:

Bağdan dererler çiçeği,
Ağ üzüne diz birçeyi,2
Sen öldür Vanlı Göyçeğ'i,
Goy ağlasın qohum, yadım.

Perizad Xanım gördü, yox, âşıq deyesen ele haq âşığıdı, ne zindandan qorxur, ne ölümden. Ama "Yene de bir smamaq lazımdır" deye Perizad Xanım üreğinde götür-qoy etti. Odur ki, dedi, âşıq, meni lap yordun. Get dincel, sabah yene görüşerik.

Beli, âşıq ordan birbaşa geldi Vezir oğlu Mehemmed'in evine. Burada da Vezir oğlu Mehemmed ona tezeden süfre açtı, yediler, içtiler, başlarını atıp yattılar. Ele ki, sabah açıldı, üzünüze nece bele sabahlar açılsın, Perizad Xanım xeber gönderdi ki, Vezir oğlu Mehemmed âşığı götürüp bağa getirsin. Beli, âşıq dalda, Vezir oğlu Mehemmed qabaxta gelib çuctılar Perizad Xanım'm bağına. Hoş-beşden sonra Perizad Xanım dedi ki, aşıq, gerek bize üç bend söz deyesen, ama işaresi de budur ki, gerek ele sözün bu bağdan, bağdakilerden olsun. Xoşuma geldi heç, yox xoşuma gelmedi, bax ele bu bağda boynun vurduracağam, dünen çox hedyan3 danıştın dinmedim.

Âşıq dedi:

- Ne olar, men razı!

Bayaq sazı döşüne basıp aldı görek ne dedi:

Bahar fesli yaz olanda,
Xoş bir nağme tutar bülbül,
Gonca gülün hesretinden,
Derde, qeme batar bülbül.

Gezdi adım dodaqlarda,
Bir yar gördüm bu bağlarda,
Seher çağı budaqlarda,
Ne dinceler, yatar bülbül.

Men yetmişem gül bendine
İnanma hercayi fendine,
Vanlı Göyçeğ'in derdine,
Nale çekip çatar bülbül.

Burada Vanlı Göyçey'in Perizad Xanım'la sözü düz gelmir. Âşığın sözünden Perizad Xanım qezeplenir. Deyir, men ele bilirdim sen emelli-başlı adamsan, sen ki, lap şit* âşucsan. Kinezler, Vezir oğlu Mehemmed, Perizad Xanım'm ayağma düşür ki, amandı, günahından keç, boynunu vurdurma. Ama Perizad Xanım deyir ki, yox.

Celladı çağırdırlar ki, Vanlı Göyçey'in boynunu vursun. Cellat gelir, Vanlı Göyçeyi çekib bağın bir küncünes aparırlar. Cellad qılıcı çekir ki, âşığın boynunu vursun, görür qılıc dönüp taxta oldu. İkinci, üçüncü qılıcı götürür, onlar da taxtaya dönürler. Cellad tez meseleni Perizad Xanım'a danışır. Perizad Xanım ne fikirleşir, ne fikirleşmir, emredir ki, Vanlı Göyçey'i bağdaki en derin kuyulardan birine salsınlar. Düz yeddi günden sonra Perizad Xanım Vezir oğlu Mehemmed'innen gelir ki, âşığı quyudan çıxarsm. Ele ki, onlar quyunun başına gelirler, görürler ki, âşıq oxuyur:

Ay zalim qanlı Perizad,
Bugün yaxşı bir ad eyle.
Menim kimi binevaya,
Şirin lebinden dad6 eyle.

Bu sözü eşitende Perizad Xanım yeniden hirslenir, üzünü Vezir oğlu Mehemmed'e tutup deyir ki qozbeli7 qebir düzelder, çıxıp gidek, qalıp burda ölsün, üstünü torpalarsız çıxıb geder. Vezir oğlu Mehemmed yalvarır ki, ay Perizad Xanım bir qulaq verek görek daha ne deyecek, yene bele sayrxlasa çıxıb giderik.

V a n l ı G ö y ç e k:

Şana zenbir arısıyam,
Eşq ehünin sarısıyam,
Aylar, yıllar ayrısıyam,
Qemhanevi8 berbad eyle.

Yene Perizad Xanım getmek isteyir. Vezir oğlu düşür ayağına ki, dayan görek, bir axıracan görek ne deyir.

Vanlı Göyçek sözünün arxasını dedi:

Vanlı Göyçek düşüp derde,
Meğer mürvet yoxtur sende,
Tanrı haqqı, salma bende,
Çevir başa, azad eyle.

Bu söz Perizad Xanım'm hoşuna geldi. Emretti ki, onu azad etsinler. Vezir oğlu Mehemmed aşığı çekip quyudan çıxardı. Perizad Xanım baxıp gördü ki, âşığın rengi solup, odur ki, ona yazığı geldi. Vezir oğlu Mehemmed'e dedi ki, apar onu sal yola. Day9 men onunla qurtardım. Vezir oğlu Mehemmed de âşığı götürüp apardı evine, kişinin neşe âşığa quşu qonmuştu. Ele hey isteyirdi ki, âşığın metlebı hasil olsun. Düz bir hef ta Vezir oğlu

1. dalgıç 2. perçem 3. boş konuşma 4. göründüğünden de fazla 5. köşe 6. imdat 7. kamburu 8. göz evi 9.daha

Mehemmed âşığa olmazın qulluq etdi. Âşıq evvelki rengine geldi. Dedi indi gözle.

Perizad Xanım car çekmişti ki, cüme günü onun küçesinden heç kim keçmesin. Ele ki, seher oldu Vezir oğlu âşığı emellibaşlı geyindirdi. Vanlı Göyçek bir oğlan oldu, bir oğlan oldu, Yusuf onun yanında- heç neydi. Atalar yaxşı deyip, güzellik ondu, dpqquzu .dondu. Beli, Vanlı Göyçek geyinip geçinip üz qoydu Perizad Xanım'ın küçesine.

Perizad Xanım da saçlarını gerdenine töküp çıxmıştı gülafirengiyei. Bir de gördü ki, bir oğlan küçe ile ona baxa baxa gelir. Qlişqırdı, bağırdı, erbe zorba geldi ki, geri qayıt, bu saat başını be deninden ayıraram. Amma kime deyirsen, oğlan heç vecine de almadı. Yaxınlaşanda Perizad xanım baxıb gördü ki, bu, biğ yeri yenice terlemiş gözel bir oğlandı, tamaşa etmeye iki göz isteyir. Perizad Xanım bir könülden min könüle ona vuruldu. Sazı döşüne basıb aldı görek ne dedi:

Seher seher qapımızdan geçirsen,
Söyle görüm, kimsen ay gözel oğlan?
Bu qaş-göz sende var, yüz qan elersen,
Söyle görüm, kimsen ay gözel oğlan?

Aldı cevabında görek Vanlı Göyçek ne dedi:

Ela gözlerine qurban olduğum,
Lale kimi yanaxların, qız senin Her seher
başına yüz dolandığım, Tîd m Gül-goncedır
dodaların, qız senin.

Perizad Xanım qaldı meettel ki, bu adam kimdir, ne cesaretle mene bu sözü deyir, men ona ne etmişem. Perizad Xamm âşığı tanımamıştı. Vanlı Göyçek sazını qaldırdı ki, özünü işare versin, ama Perizad Xanım onu yene tanımadı, aldı sözünün devamanı görek nece dedi:

Perizad Xanım:

Lâl-cevahirden tutulup yükümüz,
Arada qalmasm zerre sekimiz,
Qırılsm özgeler, qalaq ikimiz,
Söyle görüm, kimsen ay gözel oğlan?

VanlıGöyçek:

Bağ sende, bağban sende, bar sende,
Tüfek? sende, terlans sende, sar* sende
Yeni yetişen qardaş narı var sende
Helvet eyle otağların, qız senin.

Perizad Xanım:

Men Perizad padişaham, aleme belli,
Sözüm müressehli, serim de telli,
Qohumlu, qardaşlı, Unaslı, elli,
Söyle görüm kimsen, ay gözel oğlan?

VanlıGöyçek:

Axdarıp taptığım, gevherdi, candı,
Dadıma yetişen adil, divandı,
Vanlı Göyçek bir adına qurbandı,
Ver emim men dodaqlarm, qız senin.

Vanlı Göyçek oradan düz qalxdı Perizad Xanım'm otağına. Perizad Xanım da tacı başına qoyup dayanmıştı qapıda. Vanlı Göyçek içeri girende Perizad Xanım onun qabağmı kesib üstüne qışkqırdı:

- Qayıt dalaîs

Bunu eşiden Vanlı Göyçek bir adım ileri geldi. Perizad Xanım bir de qışqırdı ki, qayıt dala, bu defa da âşıq bir adım ileri geldi, üçüncü defede âşıq-meşuq sarmaştılar birbirine. Bir de o vaxt ayıldılar ki, axşam düşüp. Vanlı Göyçek gördü ki, Perizad Xanım'm tacı başından sürüşüb yere düşüp. Tacı Perizad Xanım'm başına koyup padişaha tazim etdi. Sonra da ordan çıxıb birbaşa Vezir oğlu Mehemmed'in otağına geldi.

Beli, sabahı gün Perizad Xanım sipariş etti ki, meydan sulansın, deyişmeliyem. Beli çox çekmedi meydan hazır oldu, küllü-mahluq ta meydanda cem oldu.

Her ikisi sazı döşüne basıp meydana girdiler. Beli, Perizad Xanım âşığa bir xerbe-zorba6 geldi ki, gel göresen:

Ne olmusan aşıq, deli divane,
Xeddin varsa girek indi meydana,
Gayğulu tek ne baxırsan dört yana,
Allam sazın, sallam seni zindana.

Vanlı Göyçek:

Sıdqmen sığmnam bir Allah'ime,
Durmuşam meydanda merdi-merdana,
Göqde uldızlara düşer kemendin,
Dişi aslan neyler erkek aslana.

Perizad Xanım:

Sen tek âşıqleri çox eşitmeşem,
Neçesinin yüz qemine7 yetmişem,
Neçesini pillekenden» atmışam,
Garınca tek dağılıptır her yana.

VanlıGöyçek:

Gurban olum aq üzünün mahine,
Siyah teller dal gerdende saçine,
Qarga neyler menim kimi laçine,
Vurram caynağıma?, bularam qana.

l.balkon 2. hiyle 3. doğan, şahin 4. et yiyen bir cins kuş 5. geri çekil 6. korku 7. gam 8. merdiven 9.tırnak

:

P e r i z a d  Xanım:

Men Perizad padişaham, şahların şahı,
Umudun Allah'adır, çekerem ahi,
Sendan âşiq olmaz çölün kellahi,
Bağışla sözünü, qoşul karvana.

V a n l ı  G ö y ç e k :

Men Vanlı Göyçey'em yarın qaminde,
Gece-gündüz sohbetinde, deminde,
Bir tülek terlanam beyler elinde,
Gamım belli senin teki ceylana.

Herbe-zorbaları başa çattı, geçtiler birbirini bağlamağa. Aldı Vanlı Göyçek görek ne dedi:

Senden xeber alım, Perizad Xanım,
Haqtan bize evvel hangi herf indi?
O kimdir ki, baği qalır dünyada,
O kimdir ki, dört kere öldü, dirildi

P e r i z a d  X a n ı m :

Men sene söyleyim, a Vanlı Göyçek,
Haxdan bize evvel elif-bey indi,
Hıdır Nebi baği qaldı dünyada,
Cirgiz dört kere öldü, dirildi...

Bundan sonraki Qıfılbendiı açabilmeyen Perizad Xanım meğlup olur. Perizad Xanım'ın eli her yerden üzülür. Isteyir ki, yene bir behane etsin. Ancaq vezir deyir ki, yox qızım, padişahlar vaada hilaf olmamalıdırlar. Vanlı Göyçek haq âşığıdır, ele özü de sene tay sevgilidir. Beli, vezir-vekil yığılıp Perizad Xanım'la Vanlı Göyçey'in toyunu edirler. Qırx gün qırx gece Vanlı Göyçek çalıp oxuyur. Vede tamam olanda onlar kâma yetişirler.

Bir müddet Vanlı Göyçek Unas seherinde qalandan sonra Perizad Xanım'ı vatanına aparmaq isteyir. Lakin Perizad Xanım yalvarır ki, heç yana getmeyek, ele burada yaşayak. Perizad Xanım sazı döşüne basıp deyir:

Başına döndüyüm, qurban olduğum,
Sen meni eyledin divane Göyçek,
Yaxşilik, yaxşıdır ulu dünyada
Yamanlık uğurar, yaman, Göyçek.

V a n l ı G ö y ç e k :

Gözü yolda qalıp qohum-qardeşın,
Gelmişem adalet divana, Perzad,
Yolunda qoymuşam can ile başım,
Rehm eyle menim tek, civana, Perzad.

P e r i z a d  X a n ı m :

İnnen bele baxçe-bağı neylerem,
Davasız derdine derman eylerem,
Can ile başımı qurban eylerem,
Senin tek qaribe, mihmana, Göyçek.

V a n l ı G ö y ç e k :

Bülbül gileylidir kızıl gülünden,
Sonalar xof eyler siyah telinden,
Alıp gedim seni Unas elinden,
Adı belli, şehri Uvan'e, Perzad.

P e r i z a d  Xanım:

Perzad'm derdinden çoxları deli,
Haq-tâlâ ne yazsa başıma geli,
Çox âşiqler geldi, demedim "beli"
Sen meni getirdin amane, Göyçek.

V a n l ı  G ö y ç e k :

Men Vanlı Göyçey'em fikir eylerem,
Gece-güdüz durup zikir eylerem,
Taleyime çox çox şükür eylerem,
Yetiştim göreli, karnine Perzad.

Beli, çox söz-söhbetten sonra qerara gelirler ki, gedip Vanlı Göyçey'in veteni Uvan seherini de görsünler. Bele de edirler, qırx gün Van seherinde qalıp qohum-qardeşi gördükten sonra yeniden Unasa qayıdırlar. O günden Vanlı Göyçek unas şehrinin padişahı olur.

Ele ki, Vanlı Göyçey'in başına taç qoydular, meclise âşıq girdi, çaldı çağırdı, çox metlepten danıştı, axırda da bu duvaqkapmanı2 dedi:

Süz, yeri, karagöz maral,
Hatti-hala men müştağam,
Şekerden şirin söz maral,
Lebi bala men müştağam.

Eşqin sevdası başımda,
Âşıqem cavan yaşımda,
Geyinip sallan qarşımda,
Yaşıl, ala men müştağam.

Ehdini yerine yetir,
Metlebini tezce bitir,
Nazik ellerinle getir,
Ver piyale, men müştağam.

Gel gözünü süze süze
Derdimi yetirme güze
Hoş nevrağa lale yüze
Gül cemale ben müştegam

Lmuamma 2. hiliyenin bağlama bölümü

Qalx havalan terlan kimi,
Men boylanım ceyran kimi,
Derdden qanan Loğman kimi,
O marala men müştağam.

Her vaxt eyle dostunu yad,
Menim gönlümü eyle şad,
Bıraxmaz ovünu seyad, Sen
marala men müştağam.

İlqanna eyle vefa,
Yolunda çekmişem cefa,
Hemdem olaq, sürek sefa,
Gümrah hala men müştağam.

Gönül qail ay qabağa,
Ağlım alan gül yanağa,
Zenehdane[1], ağ buhağa[2]
Hetti hala men müştağam.

Eşqm gölüne dalanda,
Ehdine doğru qalanda,
Yazıq Miskini yada salanda,
Qilu qala men müştağam.